Azərbaycan dili

اللغة الأذرية

# صلاة الجنازة

# CƏNAZƏ NAMAZI

**Şeyx Heysəm Sərhan**

"Sünnə" tədris mərkəzinin rəhbəri

Tərcümə edən: İlqar Eyvazoğlu



ALSARHAAN.COM

MAHADSUNNAH.COM

## Cənazə namazı, fərdu kifəyə ibadətlərindəndir

Qılınma qaydası: Ölünü İmamın qarşısına, baş hissəsi qiblənin sağına ayaq hissəsi isə soluna qoluyur.

İmam kişinin baş hissəsində, qadının orta hissəsində dayanır.

Cənazə namazı dörd təkbirlə qılınır. Hər təkbirdə əllərini qaldırır.

**İlk** təkbirdən sonra Fatihəni oxuyur.

**İkinci** təkbirdən sonra təşəhhüddə olduğu kimi, Peyğəmbərə ﷺ salavat gətirir.

**Üçüncü** təkbirdən sonra isə ixlasla ölülər üçün dua edir. Daha fəzilətli odur ki, sünnədə gələn dualar olsun.

**Dördüncü** təkbirdən sonra bir az dayanır, sonra sağ tərəfinə bir dəfə salam verir.

Əgər ikinci salamı verərsə, bəzi hədislərdə bu haqda bəhs edildiyinə görə bunda da problem yoxdur.

Hamiləlikdə düşən uşağa isə əgər 4 aydan yuxarıdırsa ona bu hədisə görə cənazə namazı qılınır. Peyğəmbər ﷺ buyurur:

“Hamiləlikdə düşən uşaq üçün namaz qılınır, ata-anasına da bağışlanma və rəhmət dilənir.” (Abu Davud /3180)

Uzaqda olana əgər cənazə namazı qılınmayıbsa, onun üçün də namaz qılmaq icazəlidir.

Necəki bunu Peyğəmbər ﷺ Nəcaşi üçün cənazə namazında etmişdir.

Cənazədə iştirak edənlərin sayı nə qədər çox olarsa, ölü üçün bir o qədər yaxşı olar.

Peyğəmbər ﷺ buyurub:

“Bir ölüyə, müsəlmanlardan yüz nəfərə çatan bir dəstə onun üçün namaz qılıb və onların hamısı onun üçün şəfaət etsələr (dua etsələr), ona şəfaət olunar.” (Muslim /947)

Kafirə cənazə namazı qılmaq icazəli deyil.

Uca Allah buyurub:

قال تعالى: ﴿وَلَا تُصَلِّ عَلَىٰٓ أَحَدٍ مِّنْهُم مَّاتَ أَبَدًا وَلَا تَقُمْ عَلَىٰ قَبْرِهِۦٓۖ إِنَّهُمْ كَفَرُوا۟ بِٱللَّهِ وَرَسُولِهِۦ وَمَاتُوا۟ وَهُمْ فَٰسِقُونَ ﴿٨٤﴾﴾ [التَّوۡبَة : ٨٤]

“Heç vaxt onlardan ölmüş bir kəsin (cənazə) namazını qılma, qəbrinin başında da durma. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər və günahkar olaraq öldülər.” (Tövbə surəsi, 84-cü ayə)